● Rüfət ƏLƏKBƏROV,
*Mədəniyyətşünaslıq üzrə EMM-in maddi-mədəni irs bölməsinin müdiri*



# AZƏRBAYCAN MUZEYLƏRİ VƏ ONLARIN ZƏNGİNLƏŞDİRİLMƏSİ

**Məlum olduğu kimi, hər bir muzey arxiv və fondlara malikdir. Başqa sözlə desək, müasir mənada arxiv və fondlarsız muzeyin fəaliyyəti mümkün deyil. Muzey fondu - hər hansı bir muzeyin daimi fəaliyyət göstərən sərgilərinin, elmi və təhsil müəssisələrinin idarəçiliyində olan (dövründən, məkanından, mənşəyindən, materialından və istehsal texnikasından asılı olmayaraq) elmi, siyasi və bədii xassəli tarixi, maddi və mənəvi mədəniyyət abidələrinin məcmusudur.**

Azərbaycan tarixində fondlar haqqında əsasnamənin qəbul edilməsi rəsmi olaraq SSRİ dövrünə təsadüf edir. 26 iyul 1965-ci il tarixli SSRİ Mədəniyyət Nazirliyi tərəfindən muzey fondları haqqında əsasnamə təsdiq edilmişdir. Muzey fonduna eləcə də muzey əhəmiyyətli və müxtəlif yönlü - geoloji, paleontoloji, arxeoloji, etnoqrafik və s. ekspedisiyalar nəticəsində əldə olunan kolleksiya və əşyalar aiddir.

İnqilabdan əvvəl Azərbaycan tarixinə aid rəsmi sənədləri ilk dəfə Qafqaz Arxeologiya Komissiyası dərc etmişdir. 1917-ci il inqilabından sonra arxeologiya sahəsində ilk işləri "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti" (Azərbaycanın təbii sərvətlərini, iqtisadiyyatını, tarixini, fəlsəfəsini, incəsənətini və s. öyrənən elmi mərkəz. 1923-cü ildə N.Nərimanov tərəfindən yaradılmış, 1929-cu ilə qədər fəaliyyət göstərmişdir) görmüşdü. Leninqradda ATTC-nin Tarix bölməsinin xüsusi şöbəsi yaradılmışdır. Cəmiyyət 1926-cı ildə sonralar bir sıra muzey fondlarını və arxivlərini zənginləşdirən A.Bakıxanovun "Gülüstani-İrəm" tarixi əsərini (rusca), "Şəki xanlarının tarixi" əsərlərini nəşr etdirmişdir.

Muzeylər müxtəlif profil və tiplərə ayrıldığından, onların fondlarının mənbəyi də müxtəlifdir.

Məsələn, memorial muzeylər - tarixi hadisələrə, görkəmli ictimai - siyasi, dövlət, hərbi, ədəbiyyat və incəsənət xadimlərinə həsr olunur. Belə muzeylər dövlət tərəfindən qorunan abidə kompleksləri əsasında yaradılır. Abidə kompleksləri dedikdə mühüm xadimlərin, şəxsiyyətlərin həyat və yaradıcılığı ilə bağlı olan ev, malikanə, mənzil, hadisələrin baş verdiyi ərazilər, memorial muzey əşyalarının kolleksiyaları nəzərdə tutulur. Bu tipli muzeylərin fondları sadəcə adına xatirə muzeyi açılmış şəxsiyyətin evi və bir neçə ev əşyası ilə kifayətlənə bilər, lakin şəxsi, gündəlik istifadə etdikləri ev əşyaları, mebel, iş otağı, əlyazmaları, gündəliklər, geyim, fotoşəkillər, portretlər hesabına zənginləşdirilir.

Memorial muzeylər arasında bütünlüklə tarixi şəraiti olduğu kimi saxlanmış (S. Vurğunun ev-muzeyi, H.Cavidin ev-muzeyi, V.İ.Leninin Kremldəki ev-muzeyi və s.); elmi cəhətdən yenidən təşkil olunmuş, ayrı-ayrı kolleksiyalara əsaslanan muzeylər də vardır.

Memorial muzeylər qiymətli maddi kolleksiyaları, təsviri və yazı mənbələrini qoruyur, tədqiq və təbliğ edir, elmi və mədəni - maarif işləri aparır, soraq kitabçası nəşr etdirir.

Azərbaycanda ilk xatirə muzeyi M.F.Axundovun 1939-cu ildə Şəkidə açılmış ev-muzeyidir. Sonralar Şamaxıda M.Ə.Sabirin, Ordubadda M.S.Ordubadinin, Qazaxda S.Vurğunun, Xızıda C.Cabbarlının, eləcə də Bakıda N. Nərimanovun, Ü.Hacıbəyovun, S.Vurğunun, Bülbülün, M.S.Ordubadinin, Ə.Əzimzadənin, Niyazinin, A.Şaiqin və başqalarının ev-muzeyləri təşkil edilmişdir.

Azərbaycanın xalq şairi, iki dəfə Dövlət mükafatı laureatı S.Vurğunun ev-muzeyi respublikanın ilk memorial muzeyidir. Muzey 1974-cü ildə yaradılmış, 6 oktyabr 1975-ci ildə açılmışdır. Ümumi sahəsi 200 kv.m olan muzey şairin Bakıda yaşadığı binanın üçüncü mərtəbəsində yerləşir. Muzey eksponatlarının sayı 16000-dən çoxdur. Bu muzey də Mədəniyyət və Turizm Nazirliyi sistemindədir.

Muzeyin üç otağı memorial xarakter daşıyır. Çünki bu otaqların interyeri, yəni şairin iş kabineti, habelə yataq və qonaq otaqları onun sağlığında olduğu kimi qorunub saxlanılmışdır. Muzey eksponatları vasitəsilə şairin həyat və yaradıcılığı ətraflı şəkildə əks etdirilir. Əsas ekspozisiya şəbəkələrindən olan iş otağında yazı stolu, royal, şairin şəxsi əşyaları - eynəyi, qələmi, külqabısı, ov tüfəngi, sazı, son əlyazmaları, həmçinin kitablar, fotolar, sənədlər, S. Vurğuna həsr olunmuş məqalələr və s. saxlanılır. Ümumiyyətlə, muzey ekspozisiyaları S.Vurğunun surətini yaradır, onun həyat yolunu addımbaaddım izləyir və gələcək nəsillərə mənəvi vəsiyyətinin maddi ifadəsinə çevirir.

Qeyd etmək lazımdır ki, şairin anadan olduğu Qazax rayonunun Yuxarı Salahlı kəndində də onun xatirə ev-muzeyi fəaliyyət göstərir. İldə iki dəfə, 21 mart və 27 mayda şairin Bakıdakı ev-muzeyində "Xatirə günləri" keçirilir, poeziya saatı və başqa tədbirlər təşkil edilir.

M.S.Ordubadinin xatirə muzeyi digər muzeylər kimi Azərbaycan hökumətinin 1976-cı il tarixli "Dahi ədəbiyyat və incəsənət xadimlərinin adlarına xatirə muzeylərinin yaradılması" qərarına əsasən 1979-cu ildə təşkil olunmuşdur. Muzey 1981-ci ildə yaradılmışdır. Ədib 1937-1950-ci illərdə məhz indi Bakıda ev-muzeyi təşkil olunmuş mənzildə yaşamışdır.

Muzeyin ekspozisiyası iki otaqda və dəhlizdə cəmləşmişdir. O, bu otaqlarda özünün dahi əsərlərini yaratmış, Ü.Hacıbəyov, M.İbrahimov, Bülbül və s. kimi dahiləri qonaq qəbul etmişdir.

Ekspozisiya otaqlarında Ordubadinin şəxsi və ev əşyaları, ümumiyyətlə çoxlu tarixi eksponatlar vardır. Qonaq otağındakı yazı, yemək stolu, pianino ədibin sağlığında olduğu şəkildə düzülmüşdür. Yazı stolu üzərində M.S.Ordubadiyə məxsus əşyalar - əlyazmalar, kitablar, həmçinin telefon aparatı saxlanılır. Digər otaqda divarboyu stendlər düzəldilmişdir. Burada çoxlu sayda fotolar, müxtəlif sənədlər - M.S.Ordubadinin Yazıçılar İttifaqına üzvlük kitabçası, bileti, həmçinin afişalar, qəzet və jurnallar nümayiş etdirilir.

Hal-hazırda muzeyin əməkdaşları M.S.Ordubadinin zəngin yaradıcılığını təbliğ edərək, müntəzəm olaraq müxtəlif görüşlər keçirirlər.

Azərbaycan xalqının görkəmli ictimai - siyasi dövlət xadimi, dramaturqu, publisisti, həkimi N.Nərimanovun xatirə muzeyi onun 1913-1918-ci illərdə Bakıda yaşadığı mənzildə 1977-ci ildə yaradılmışdır.

Muzeyin ekspozisiyası 4 otaqdan ibarətdir: yemək, qonaq, yataq otaqları və həkim kabineti. Muzeyin fondunda 5000-dən çox eksponat, sənəd və materialların əsli, kitablar, Nərimanovlar ailəsinin fotoları qorunub saxlanılır. Bu ekspozisiyalar N.Nərimanovun gənclik illərini, Borçalının Qızılhacılı kəndində müəllimlik etdiyi illərini, 1891-ci ildə Bakıya gəldikdən sonra ictimai - siyasi fəaliyyətini, ədəbi yaradıcılığını əks etdirir. Muzeyin eks-

pozisiya şəbəkəsində iki minə yaxın eksponat nümayiş etdirilir.

ADR-in yaradılmasında və Azərbaycanda Sovet hakimiyyətinin qurulmasında N.Nərimanovun bir dövlət xadimi və diplomat kimi fəaliyyəti onun həyatında vacib dövrlərdən biridir.

Muzeydə müntəzəm olaraq N.Nərimanovun xatirəsinə həsr olunmuş görüşlər keçirilir, azərbaycan və rus dillərində izahatlar aparılır.

Görkəmli dramaturq, teatrşünas, şair C.Cabbarlının ev-muzeyi 1969-cu ildə Xızıda açılmışdır. 1982-ci ildə isə ədibin 80 illik yubileyi ərəfəsində muzeyin filialı Bakıda yaradılmışdır. Muzey Mədəniyyət və Turizm Nazirliyi sistemindədir. Hər iki muzeydə C.Cabbarlının həyat və yaradıcılığını əks etdirən müxtəlif eksponatlar, ədibin pyeslərinin tamaşaları üçün hazırlanmış maketlər, foto-şəkillər saxlanılır. Son illərdə hər iki muzey əsaslı şəkildə təmir və rekonstruksiya edilmiş, onların ekspozisiya şəbəkəsi xeyli genişləndirilmişdir.

Görkəmli şair, filosof, dramaturq H.Cavidin ev-muzeyi 1981-ci il 604 saylı qərar ilə onun anadan olmasının 100 illiyi münasibətilə yaradılmış, 1991-ci ildən fəaliyyətə başlamışdır. 1995-ci ildən Azərbaycan Milli Elmlər Akademiyası sistemindədir. Ekspozisiya və fondlarda 5000-dən artıq eksponat saxlanılır (2004). Muzeydə Cavidin həyat və yaradıcılığını əks etdirən qiymətli nümunələr - onun müxtəlif illərdə nəşr olunmuş əsərləri, əlyazmaları, xatirə və məktubları, ailə şəkilləri, rəssamlıq əsərləri, şəxsi əşyaları və s. toplanmışdır.

Otaqların biri "Cavid faciəsi" adlanır. Burada hər şey şairin həyatında olduğu kimi qalmışdır. Yazı masası, sürgündə olarkən qohumlarına yazdığı məktublar və s. Muzeydə müntəzəm olaraq xatirə görüşləri keçirilir.

Muzey əvvəlcə Əlyazmalar İnstitutunun binasında, sonralar isə şairin 1920-1937-ci illərdə yaşadığı binada yerləşdirilmişdir. Muzeyin yerləşdiyi bina tanınmış milyonçu H. Z. Tağıyev tərəfindən tikilmiş və burada müsəlman qadın məktəbi təşkil olunmuşdur. Məktəb 1918-ci ilədək fəaliyyət göstərmişdir. Muzeyin ümumi sahəsi 245 kv. m-dir və burada 4250 eksponat qorunub saxlanılır. Muzeyin foyesində H. Cavidin adını daşıyan planetin təsviri verilmişdir.

Azərbaycan xalqının qeyri-maddi mədəniyyət nümunələrindən biri də musiqidir. Bu baxımdan Bakıdakı Musiqi Mədəniyyəti Muzeyinin fəaliyyəti həm musiqi mədəniyyəti, həm də muzey işi sahəsində əlamətdar bir hadisədir.

Musiqi muzeyləri - musiqi mədəniyyətinin tarixi abidələrini toplayan, qoruyan, tədqiq edən və sərgiləyən müəssisədir. Musiqi muzeylərinin bir neçə tipi məlumdur: alətlərin, əlyazmaların, izomaterialların toplusu; kolleksiyalar (musiqi alətləri və s.) və müxtəlif musiqiçilərə həsr olunmuş memorial muzeylər. İlk musiqi muzeyləri hələ orta əsrlər dövründə həvəskarların şəxsi kolleksiyaları əsasında formalaşırdı.

Azərbaycan Dövlət Musiqi Mədəniyyəti Muzeyi 1967-ci ildə Bakıda yaradılmışdır. Bu muzey Mədəniyyət və Turizm Nazirliyi sistemində fəaliyyət göstərir. Muzeyin fondunda 35000-dən çox eksponat toplanmışdır. Bunlardan Azərbaycanın milli musiqi alətləri olan tar, kamança, saz, dəf, qoşanağara, həmçinin qədim qramafon və patefonlar, Azərbaycan peşəkar musiqi sənətinin yaradıcısı Ü.Hacıbəyovun, milli professional vokal sənətinin banisi Bülbülün, görkəmli bəstəkarlardan Q.Qarayevin, F.Əmirovun, S.Ələsgərovun, A.Məlikovun, C.Hacıyevin not əlyazmaları, əsərlərindən seçmələr, musiqi xadimlərinin şəxsi əşyaları, afişalar, konsert proqramları, musiqi sənətinə aid olan kitablar və başqa materiallar diqqəti cəlb edir. Muzeyin aşağıdakı filialları vardır: daimi fəaliyyət göstərən xalq çalğı alətləri sərgisi, Niyazinin ev-muzeyi, Vaqif Mustafazadənin ev-muzeyi.

Ü.Hacıbəyovun ev-muzeyi 1975-ci ildən Bakıda fəaliyyət göstərir. Muzeyin ekspozisiyası 6 otaqda (zalda) yerləşmişdir. Ü.Hacıbəyova məxsus müxtəlif əşyalar, bəstəkarın şəxsi kitabxanası, yazı stolu, stolun üzərində (şüşə örtük altında) yarımçıq qalmış "Azərbaycan" simfonik poemasının partiturası, eynək, qələm, kabinetin müxtəlif hissələrində royal və skripka, kitab və qəzetlər muzeyin daimi eksponatları arasındadır. Muzeydə geniş elmi - tədqiqat işləri aparılır.

Azərbaycan incəsənətinin digər inkişaf etmiş sahələrindən biri də teatrdır. Peşəkar teatr ənənələrinə malik olan Azərbaycan milli teatrı mütləq şəkildə muzeylərimizdə təbliğ edilməlidir.

Teatr muzeyi - teatr tarixinə aid olan orijinal material və sənədləri toplayan elmi, mədəni-maarif müəssisəsidir. Lakin ayrı-ayrı böyük teatrlara həsr olunmuş teatr muzeyləri də fəaliyyət göstərməkdədir.

C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi Azərbaycan teatrı tarixinə dair sənəd və materiallar toplayan, qoruyan elmi, mədəni-maarif müəssisəsidir. Muzeyin 1926-cı ildə Azərbaycan Dram Teatrının foyesində təşkil edilmiş sərgi ilə əsası qoyulmuş, 1927-ci ildə isə Azərbaycan SSR Xalq Maarif Komissarlığının qərarına əsasən açılışı olmuşdur. Muzey 1928-1934-cü illərdə Azərbaycan Dövlət Muzeyinin (indiki Azərbaycan Dövlət Tarixi Muzeyi) şöbəsi kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Dövlət Teatr Muzeyi yalnız 1934-cü ildə müstəqil muzeyə çevrilmişdir. Muzey 1935-ci ildən Cəfər Cabbarlının adını daşıyır.

Teatr muzeyinin yaradılmasında Ü.Hacıbəyov, A.M.Şərifzadə, C.Cabbarlı, H.Q.Sarabski, S.Ruhulla, Ş.Məmmədova, M.A.Əliyev, A.K.Şərifov (ilk direktoru) və başqalarının əvəzedilməz xidmətləri olmuşdur.

Muzeyin arxiv-memuar, foto-neqativ, eskiz-maket şöbələri vardır.

Teatr muzeyində, əsasən Azərbaycan milli teatr sənətinin keçmiş olduğu şərəfli yolu işıqlandıran eksponatlar - sənəd və materiallar, fotolar, rəsm əsərləri, kitablar, afişa nümunələri və s. nümayiş olunur. Muzeyin fondunda 70 mindən artıq eksponat saxlanılır (1986). Mütəmadi olaraq Teatr muzeyində mədəni-maarif və kütləvi işlər aparılır, incəsənət əsərlərinin sərgiləri keçirilir, mühazirə və disputlar təşkil edilir.

Dünyada öz əsrarəngiz nümunələri ilə seçilən Azərbaycan xalçaçılıq sənəti haqqında həm gələcək nəsillərə, həm də vətənimizdə qonaq olan xarici vətəndaş və turistlərə dolğun məlumatın verilməsi əsasən onların nümayiş olunduğu muzeylərin üzərinə düşür. Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Muzeyi dünyada ilk xalça muzeylərindən biridir. Muzey 1967-ci ildə təsis edilmiş, 1972-ci ildə açılışı olmuşdur. Xalça muzeyi Bakının ən qədim hissəsində - tarixi-memarlıq qoruğu olan İçərişəhərdə yerləşir. Hal-hazırda muzey Azərbaycanın görkəmli xalq rəssamı, sənətşünas Lətif Kərimovun adını daşıyır.

Xalça muzeyinin fondunda 10 mindən artıq incəsənət əsəri saxlanılır (1986). Bunlar XVIII-XIX əsrlərdə, həmçinin XX əsrdə Azərbaycanın müxtəlif yerlərində (Qarabağ, Quba, Şirvan, Gəncə, Qazax, Təbriz və s.) el sənətkarları tərəfindən toxunulmuş ornamental, xovlu (xalça, xalı, dəst xalı, gəvə) və xovsuz (palaz, kilim, şəddə, vərni, zili, cecim, sumax və s.) xalça nümunələri, eləcə də müxtəlif xalça məmulatından (çul, məfrəş, heybə, xurcun, yəhər qaşlığı və s.) ibarətdir. Muzeyin ekspozisiyasında qədim dövrlərə aid qara keramika və tunc əşyalar, XIX əsrdə hazırlanmış bədii tikmə (mütəkkələr, xurcunlar), parça, şüşə, metal, ağac, misgərlik və zərgərlik məmulatları, silah və digər eksponatlar nümayiş etdirilir.

Eksponatlar arasında Lətif Kərimovun yaratdığı "Şəbi-hicran", "Bahar", "Əsrlərin nəğməsi", "Uşaq", çox böyük xalçaçı rəssam Kamil Əliyevin "Buta", "Xonça", "Nəsimi", "Atatürk" və s. kimi xalçalara rast gəmək olar. L.Kərimovun "Azərbaycan xalçaları" kitabı da muzeyin daimi eksponatları arasındadır.

Müxtəlif illərdə muzey eksponatları bir çox xarici ölkələrdə, o cümlədən Almaniya, Fransa, İtaliya, Norveç, Danimarka, Suriya, İordaniya, Şri-Lanka və başqa ölkələrdə nümayiş etdirilmişdi. 1985-ci ildən etibarən Gəncə şəhərində muzeyin filialı fəaliyyət göstərir.

Azərbaycanda müəssisə muzeyləri də fəaliyyət göstərir. Müəssisə muzeyləri, bir qayda olaraq, təmsil etdikləri müəssisənin tarixini, onun profilini, imkanlarını, nailiyyətlərini əks etdirir və onun nəzdində fəaliyyət göstərir. Belə muzeylər əsaslı muzeylərdən və ev-muzeylərindən sosial-ictimai funksiyasının daha məhdud olması ilə fərqlənir. Bir qayda olaraq müəssisə muzeylərinin xidmətlərindən geniş xalq kütləsi deyil, müəssisə əməkdaşları, ayrı - ayrı şəxslər, elmi - tədqiqat işləri ilə əlaqədar olaraq alimlər, aspirant və magistrlar, müəssisənin qonaqları və başqaları istifadə edir. Hazırda respublikanın müxtəlif şəhər və rayonlarında onlarla iri müəssisə muzeyi fəaliyyət göstərir ki, bunların bir çoxu eksponatlarının sayına və əhəmiyyətinə görə dövlət muzeylərindən geri qalmır. Bir çox nazirliklərin, baş idarələrin, komitə və şirkətlərin, eləcə də ali texniki peşə və orta ixtisas məktəblərinin nəzdində geniş eksponat fondu ilə diqqəti cəlb edən müəssisə muzeyləri yaradılmışdır. Buraya Azərbaycan Dəmiryolu Dövlət Tarix muzeyi, Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin Tarix muzeyi, Səhiyyə Tarixi muzeyi, BDU-nun Tarix muzeyi, Geologiya-minerologiya fakültəsinin nəzdindəki "Faydalı Qazıntılar" muzeyi, Bədən tərbiyəsi və İd-

man kafedrasının "Velosiped muzeyi", Etnoqrafiya muzeyi, Azərbaycan Dövlət Neft Akademiyasının Tarix muzeyi, Azərbaycan Tibb Universitetinin muzeyləri, Azərbaycan Dövlət Pedaqoji Universitetinin muzeyi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin muzeyi, Azərbaycan Dövlət İqtisad Universitetinin muzeyi və digər ali təhsil müəssisələrinin muzeyləri aiddir.

Onların zənginləşdirilməsi təkcə yerli eksponat və əşyalarla deyil, həm də ən çox postsovet ölkələri ilə eksponat mübadiləsi yolu ilə həyata keçirilir.

## Ədəbiyyat

1.Azərbaycan Dövlət İncəsənət Muzeyi. Bakı, 1959.
2.Azərbaycan Tarix Muzeyi. Bakı, 1973.
3.Əsrlərdən yadigar. Bakı, 2004.
4.Azərbaycan Sovet Ensiklopediyası. Bakı, 1983. 7-ci cild.

## РЕЗЮМЕ

## "МУЗЕИ АЗЕРБАЙДЖАНА И ПОПОЛНЕНИЕ ИХ ФОНДОВ"

Несмотря на то, что в Азербайджане официальное положение о музеях было принято в советское время, музеи и основы музееведения были заложены здесь еще в 19 веке. В период, когда Азербайджан являлся неотъемлемой частью советского пространства, здесь были открыты музеи разного профиля: исторические, краеведческие, сельскохозяйственные, музеи искусств и т.д. В это время проблема музеев была связана исключительно с идеологией государства. Все музеи Советского Союза отражали идеальную жизнь советского человека, а то, что вне понятия советское, выставлялось в худшем свете. С приобретением независимости в Азербайджане музейная проблема приобрела иной характер. Рыночная экономика и глобализация нанесли ущерб существующим музеям. Люди стали уделять больше внимания материальным ценностям и отдаляться от духовных ценностях и от наследия предков. Сегодня в республике функционируют музеи разных профилей и в музееведение привлечена молодежь. Открыты новые музеи со стратегическим значением множество мемориальных музеев. Радует одно, что источником пополнения их фондов являются не только местные экспонаты, но и памятные вещи постоянно, поступающие со стран бывшего Советского Союза.

## SUMMARY

## "THE MUSEUMS OF AZERBAIJAN AND UPDATING OF THEIR FUNDS"

In spite of the fact that in Azerbaijan the official regulations about museums were accepted during Soviet period, museums and bases of museology have been incorporated here in 19 century. During when Azerbaijan was an integral part of the Soviet Union, museums of a different structure here have been opened: historical, study of local lore, agricultural, museums of arts, etc. At that time the problem of museums has been connected exclusively with ideology of the state. All museums of Soviet Union reflected an ideal life of the Soviet person, and that outside of concept Soviet, was exposed in the worst condition. With achieving of independence in Azerbaijan another problem of museums were appeared.

The market economy and globalization have damaged to existing museums. People began to give more attention to material assets and to keep away òf cultural wealth and heritages of ancestors. Today in republic museums of different structures are exist and the young people is involved in museology. New museums with strategic importance also memorial museums are opened. It's nice that sources of updating of their funds are not only local exhibits, but also memorable things constantly acting with country the former Soviet Union.